ƏDLİYYƏ
www.justice.gov.az
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı
№ 11 (260) noyabr 2025



# Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədliyyə orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Əbilov Adil Fazil oğlu
Muradova Aytən Cahangir qızı
Nəsibov Elçin Rafiq oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abdullayeva Gültən Ramiz qızı
Abdulov Hakim Abdulhəsən oğlu
Hüseynov Emil Fuqan oğlu
İsayev Oqtay Əli oğlu
Məmmədov Cavid Mirzəbaba oğlu
Məmmədov Yunis Məmməd oğlu
Muradova Mətanət Fadil qızı
Zakirova Leyla Əziz qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 noyabr 2025-ci il*

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Abiddin Qabil oğlu Hüseynov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Toğrul Aydın oğlu Hüseynov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 noyabr 2025-ci il*

# *22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günüdür!*

# Ədliyyə işçilərinin peşə bayramı qeyd edilib





**Ədliyyə Nazirliyində Ədliyyə işçilərinin peşə bayramına həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə Nazirliyin rəhbərliyi, struktur qurumların nümayəndələri, həmçinin ədliyyə fəaliyyətinin inkişafında fərqlənən əməkdaşlar iştirak ediblər.

Mərasimdən öncə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsi ehtiramla anılıb, məzarı önünə gül dəstələri qoyulub. Daha sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının xatirəsi yad edilib, məzarları önünə tər güllər düzülüb.

Nazirliyin inzibati binasında davam edən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub.

Ədliyyə naziri Fərid Əhmədov çıxış edərək əməkdaşları peşə bayramı münasibətilə təbrik edib, bütün əməkdaşlara uğurlar arzulayıb. Nazir ölkəmizdə hüquq sisteminin modernləşdirilməsi, ədliyyə sahəsində həyata keçirilən institusional və rəqəmsal islahatlar, vətəndaşlara göstərilən xidmətlərin səmərəliliyinin və operativliyinin artırılması istiqamətində görülən tədbirlər barədə danışıb. O bildirib ki, dövlət başçısının rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlar ədliyyə orqanlarının fəaliyyətinə yeni dinamika qazandırıb və bu istiqamətdə əldə olunan nəticələr qarşıya qoyulan yeni hədəflərin reallaşdırılması üçün möhkəm baza formalaşdırıb.



Daha sonra Fərid Əhmədov 23 iyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2025-ci il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş ədliyyə orqanlarında çalışan əməkdaşlara medalları təqdim edib. Həmçinin nazir "Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 noyabr 2025-ci il tarixli Sərəncamını səsləndirib.

Tədbirin sonunda qulluqda xüsusi fərqləndiklərinə və səmərəli fəaliyyətlərinə görə ədliyyə nazirinin müvafiq əmri ilə təltif olunmuş bir qrup əməkdaşa "Ədliyyə sahəsində fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı, döş nişanları, fəxri fərmanlar və təşəkkürlər təqdim edilib.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunur.



# Yaranmasının 107-ci ildönümünü qeyd edən Azərbaycan ədliyyəsi fəaliyyətini müasir çağırışlara uyğunlaşdırıb

22 noyabr - Azərbaycanın ədliyyə orqanlarının yaranmasının 107 illiyi tamam olur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə hər il noyabrın 22-si ölkəmizdə ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilir. AZƏRTAC bu əlamətdar günlə bağlı Azərbaycan ədliyyə orqanlarının son bir ildə keçdiyi inkişaf yoluna nəzər salır.

Ədliyyə sahəsində son illər ərzində idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflıq və səmərəliliyin artırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Ədliyyə orqanlarının fəaliyyətinin müasir çağırışlara uyğunlaşdırılması, rəqəmsal həllərin tətbiqi, elektron xidmətlərə əlçatanlığın genişləndirilməsi bu dövrün əsas prioritetləri olub.

### Ədliyyə sahəsinin rəqəmsallaşdırılması

Ədliyyə Nazirliyi ötən dövr ərzində rəqəmsal transformasiya istiqamətində genişmiqyaslı fəaliyyət həyata keçirib. Ümumilikdə 40-dan çox rəqəmsal alət və həll, o cümlədən informasiya sistemləri, proqram təminatları və portallar formalaşdırılıb. Bu işlərin böyük əksəriyyəti özəl tərəfdaşlarla əməkdaşlıq çərçivəsində icra olunub və dövlət büdcəsində yük minimuma endirilib.

"Elektron icra" informasiya sistemi tam yenilənib, həmçinin "Mobil icra" tətbiqi istifadəyə verilib. Bütün icra hərəkətləri rəqəmsal müstəviyə keçirilib, bir sıra proseslər avtomatlaşdırılıb, borclu və tələbkarların icra prosesinin bütün mərhələlərini izləməsi mümkün olub. Hazırda hüquqi şəxslər üçün xüsusi mobil versiya hazırlanır və əlavə nəzarət-hesabat mexanizmləri inteqrasiya olunur.

Hərraclarda şəffaflığın artırılması məqsədilə istifadəyə verilmiş "Elektron hərrac" portalı qısa müddətdə səmərəli fəaliyyət göstərib. Portal vasitəsilə 600-ə yaxın hərrac keçirilib, satılan əmlakların ümumi dəyəri 100 milyon manatdan çox olub.

"Mobil notariat" tətbiqinin funksionallığı artırılıb və onun veb versiyası hazırlanıb. Rəqəmsal notariat xidmətlərinin həcmi ölkə üzrə ümumi notariat əməliyyatlarının 30 faizindən 50 faizinə yüksəlib. İstifadəçi sayı isə 800 mindən 1,2 milyona çatıb. Hazırda hüquqi şəxslər üçün ayrıca versiya hazırlanır.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə hazırlanmış süni intellekt əsaslı "e-qanun.ai" portalı hüquqi sənədlər üzrə operativ və dəqiq axtarış imkanları yaradır. Artıq 30 mindən çox istifadəçi qeydiyyatdan keçib, sistem 500 mindən çox sorğunu emal edib. Platformanın mobil tətbiq versiyasının hazırlanması istiqamətində işlərə başlanılıb.

Daşınmaz əmlakın alqı-satqısı prosesində şəffaflığı təmin etmək üçün süni intellekt əsaslı əmlak kalkulyatoru istifadəyə verilib. Bu platforma notariat ofislərində qiymətləndirmə prosesinin şəffaf və operativ aparılmasına şərait yaradıb.

Məhkəmə ekspertizası sahəsində dövlət qurumlarını əhatə edən geniş funksionallıqlı informasiya sistemi - "Elektron məhkəmə ekspertizası" hazırlanıb. Bu günlərdə Prezident İlham Əliyev tərəfindən sistemin fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən Fərman imzalanıb.

"Bələdiyyələrlə iş" informasiya sistemi və onun tərkibində "Bələdiyyə gəlir və xərclərinin vahid portalı" yaradılıb. Bu həll bələdiyyə fəaliyyətində şəffaflıq və maliyyə intizamını əhəmiyyətli dərəcədə gücləndirir.

Hazırda cəza-icra və probasiya sistemində rəqəmsallaşma tədbirləri (penitensiar müəssisələrdə üztanıma texnologiyalarının tətbiqi, məhkumlarla görüşlərin




onlayn qeydiyyatı, Probasiya xidməti üzrə yeni elektron nəzarət mexanizmlərinin, həmçinin məhkumlar üçün vahid məlumat bazasının yaradılması, teletibb xidmətinin təşkili) genişləndirilir.

Nazirliyin fəaliyyət istiqamətləri üzrə digər yeni rəqəmsal alətlər və süni intellekt həllərinin də (insan resurslarının idarə edilməsi proqramı, müraciətlərin cavablandırılması üçün süni intellekt assistenti, ekstradisiya proseslərinin idarəsi üçün proqram təminatı) yaxın günlərdə istifadəyə verilməsi planlaşdırılır.

### İcra fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülmüş işlər

Ölkədə mülki dövriyyənin genişlənməsi və məhkəmə mübahisələrinin artması fonunda rəqəmsal həllərin tətbiqi, qanunvericilik və institusional tədbirlərin gücləndirilməsi, icra məmurlarına münasibətdə tələbkarlığın artırılması nəticələrin yaxşılaşdırılmasına imkan verib. Hazırda ümumi icra göstəriciləri son beş ilin ən yüksək səviyyəsinə yüksəlib.

Bununla yanaşı, icra sistemində səmərəliliyin artırılması, alternativliyin təmin olunması, iş yükünün optimallaşdırılması və xidmətlərin əlçatanlığının yaxşılaşdırılması istiqamətində geniş təhlillər aparılıb. Ədliyyə Nazirliyi tərəfindən hazırlanan "Xüsusi icra məmurları haqqında" Qanun layihəsi qəbul edilib. 2026-cı ilin yanvar ayından bu institutun tətbiqinə başlanacaq.

Eyni zamanda, Nazirliyin təşəbbüsü ilə icra haqqında qanunvericiliyə mühüm dəyişikliklər edilib. Bu dəyişikliklər sırasında icra hərəkətləri zamanı bütün hesablaşmaların yalnız nağdsız qaydada aparılması, hərracların təşkili qaydalarının təkmilləşdirilməsi və s. yer alır.

İcra sahəsində kadr potensialının artırılması istiqamətində də mühüm addımlar atılıb. İcra məmuru olmaq üçün hüquq təhsili tələbi aradan qaldırılıb ki, bu da ali təhsilli digər ixtisas sahiblərinin icra məmuru ştatlarına müraciət etməsinə və Nazirliyin təşkil etdiyi təlimlərdən keçərək fəaliyyətə başlamasına şərait yaradır.

Hazırda icra institutunun hüquqi bazasının beynəlxalq təcrübə əsasında daha da təkmilləşdirilməsi istiqamətində layihələr hazırlanır.

### Cəza-icra qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi

Cəza-icra sahəsində islahatlar çərçivəsində dövlətimizin başçısının 2024-cü il 11 sentyabr tarixli Sərəncamına uyğun olaraq "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Fəaliyyət Planı" təsdiq edilib. Sənəd cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara uyğunlaşdırılması, əmək bazarında mövcud və perspektiv tələblərə cavab verməsi, məhkumların məşğulluq potensialının gücləndirilməsi və cəzaçəkmə müəssisələrinin maddi-texniki bazasının yenilənməsi istiqamətində kompleks tədbirləri əhatə edir. Fəaliyyət Planı, həmçinin sahibkarların tələbatına uyğun peşə hazırlığının təşkili və azad olunmuş şəxslərin əmək bazarına adaptasiyasının genişləndirilməsini nəzərdə tutur. Artıq Fəaliyyət Planının icrasına başlanılıb və prosesə özəl tərəfdaşların cəlb edilməsi istiqamətində işlər davam etdirilir.

Məhkumların tibbi təminatının yaxşılaşdırılması məqsədilə Nazirliyin daxili imkanları hesabına göstərilməsi mümkün olmayan bəzi tibbi xidmətlərinin icbari tibbi sığorta çərçivəsində kənarda tibb müəssisələri vasitəsilə təmin edilməsinə imkan verən normativ-hüquqi aktların layihələri hazırlanaraq təqdim olunub. Qanunvericiliyə müvafiq dəyişikliklər artıq qəbul edilib.

Eyni zamanda, cəzaçəkmə müəssisələrinin infrastrukturunun gücləndirilməsi ilə bağlı layihələr üzərində işlər davam etdirilir. Bu tədbirlər penitensiar sistemdə proseslərin müasirləşdirilməsini hədəfləyir. Alternativ cəzaların tətbiqinin genişləndirilməsi, məhkumların reabilitasiyasının gücləndirilməsi və icra sistemində müasir yanaşmaların tətbiqi məqsədilə "Probasiyanın İnkişaf Konsepsiyası" da hazırlanıb.

### Ekspertiza fəaliyyətinin təkmilləşdirilməsi

Prezident İlham Əliyevin "Məhkəmə Ekspertizası Şurasının yaradılması haqqında" 2024-cü il 7 avqust tarixli Sərəncamından irəli gələn vəzifələr çərçivəsində məhkəmə ekspertizası sahəsinin mövcud vəziyyəti hərtərəfli təhlil edilib. Bu məqsədlə ölkədə fəaliyyət göstərən bütün məhkəmə ekspertiza qurumları prosesə cəlb olunub, sahədəki mövcud problemlər və institusional boşluqlar araşdırılıb, beynəlxalq təcrübə nəzərə alınmaqla inkişaf prioritetləri müəyyən edilib.

Aparılmış geniş təhlillər əsasında "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin 2025-2030-cu illər üçün İnkişaf Konsepsiyası"nın layihəsi, həmçinin normativ-hüquqi akt layihələri hazırlanaraq müvafiq qaydada təqdim olunub.

Qeyd olunan sənədlər məhkəmə ekspertizası fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılmasını, ekspertiza infrastrukturunun yenilənməsini, yeni ekspertiza sahələrinin inkişaf etdirilməsini, vahid koordinasiya mexanizminin gücləndirilməsini və ümumilikdə ekspert rəyinin obyektivliyi, dəqiqliyi və etibarlılığının artırılmasını hədəfləyir.

### Vətəndaş məmnunluğunun təmin edilməsi

Ədliyyə Nazirliyi vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, müraciətlərin operativ və çevik cavablandırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Bu çərçivədə Nazirliyin "881" Çağrı Mərkəzi ən müasir texnoloji həllər, rəqəmsal idarəetmə alətləri və innovativ yanaşmalar tətbiq olunmaqla yenilənmiş formatda fəaliyyət göstərir. Mərkəzin təkmilləşdirilmiş imkanları vətəndaşların məlumatlara daha rahat çıxışını təmin edib və artıq 70 mindən çox müraciətin operativ şəkildə cavablandırılması mümkün olub.

ƏDLİYYƏ



# Penitensiar xidmətinin balansında olan inzibati binanın açılışı olub






**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin balansında olan inzibati binanın əsaslı təmirdən sonra açılışı olub.**

Açılışda nazir Fərid Əhmədov iştirak edib. Nazir inzibati binada aparılmış təmir və yenidənqurma işləri ilə tanış olub.

Fərid Əhmədov, həmçinin inzibati binada Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsinin Arxiv şöbəsi üçün yaradılmış yeni inzibati məkana da baxış keçirib.

Arxiv şöbəsi üçün nəzərdə tutulan inzibati məkan müasir texniki standartlara uyğun qurulub. Burada arxiv sənədlərinin mühafizəsi, eləcə də rəqəmsallaşdırılması üçün tam şərait yaradılıb. Binada yüksəktutumlu saxlanclar, geniş iş otaqları və vətəndaşların qəbulu üçün nəzərdə tutulmuş müasir tələblərə uyğun otaq fəaliyyət göstərəcək.

# Nazir Fərid Əhmədov Masallı şəhərində vətəndaşları qəbul edib



**Ədliyyə naziri Fərid Əhmədov 7 noyabr tarixində Masallı şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad və Yardımlı rayonlarından ümumilikdə 145 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib.

Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

# Ədliyyə Nazirliyində Zəfər Günü münasibətilə tədbir keçirilib






**Ədliyyə Nazirliyində 8 noyabr - Zəfər Gününün beşinci ildönümünə həsr edilmiş tədbir təşkil olunub.**






Nazirliyin rəhbərliyi və kollektivi əvvəlcə II Fəxri xiyabanı ziyarət edərək Vətən müharibəsində könüllü iştirak etmiş şəhid ədliyyə qulluqçusu Ruhin Xəlilovun məzarı üzərinə, daha sonra inzibati binada yerləşən barelyefi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ərazi bütövlüyümüzün bərpası uğrunda canlarından keçmiş şəhidlərimiz bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan nazir müavini Abiddin Hüseynov əlamətdar gün münasibətilə iştirakçıları təbrik edərək bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Ordumuzun qəhrəmanlığı ilə qazanılan bu tarixi Qələbə xalqımızın iradəsini, milli birliyini və sarsılmazlığını bir daha nümayiş etdirdi və hər bir Azərbaycan vətəndaşında yüksək milli ruh və həmrəylik formalaşdırdı.

Tədbirdə iştirak edən deputat Kamal Cəfərov Zəfər Gününün əhəmiyyətindən, dövlətimizin inkişaf və gücünün real təzahürü kimi işğaldan azad olunmuş torpaqlarda həyata keçirilən quruculuq prosesinin strateji əhəmiyyətindən və doğma yurdlarına dönən soydaşlarımız üçün müasir, təhlükəsiz yaşayış mühitinin yaradılmasından bəhs edib.

Vətən Müharibəsi Qəhrəmanı Azər Abdullazadə və qazi əməkdaş Nəvai Bayramov çıxışlarında döyüş yoldaşları ilə bölüşdükləri çətin, amma qürurverici anlardan, Azərbaycan əsgərinin sarsılmaz ruhundan danışıb, torpaqlarımızın azad olunmasında hər bir əsgərin fədakarlığının və həmrəyliyinin böyük rol oynadığını vurğulayıblar.

# Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovun Səudiyyə Ərəbistanı Krallığına və Birləşmiş Ərəb Əmirliklərinə səfəri

## Nazir Fərid Əhmədov Ər-Riyadda ikinci Beynəlxalq Ədliyyə Konfransında iştirak edib





**Ədliyyə naziri Fərid Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən ikinci Beynəlxalq Ədliyyə Konfransında iştirak edib.**

Konfrans çərçivəsində nazir Fərid Əhmədov Səudiyyə Ərəbistanı Krallığının ədliyyə naziri Vəlid bin Məhəmməd bin Saleh Əl-Samni ilə görüşüb. Görüş zamanı ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin bütün sahələrdə, xüsusilə hüquq və ədliyyə sahəsində inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin genişləndirilməsinin önəmi vurğulanıb.

Tərəflər, həmçinin ədliyyə sahəsində əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi məqsədilə Əməkdaşlıq Proqramını imzalayıblar. Proqram qeydiyyat, notariat və digər ədliyyə orqanlarında görüşlərin təşkili, qabaqcıl təcrübələrin öyrənilməsi, tədris müəssisələri arasında birgə tədbirlərin keçirilməsi və digər sahələri əhatə edir.

Qeyd edək ki, 23-24 noyabr tarixlərini əhatə edən konfrans ümumilikdə 40-dan çox ölkədən yüksək vəzifəli dövlət rəsmilərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, ekspertlərin və alimlərin iştirakı ilə keçirilib. Tədbirdə ədliyyə və məhkəmə sistemlərində texnologiyaların gələcəyi, rəqəmsal transformasiya və süni intellektin tətbiqi, qanunvericilik sahəsində müasir yanaşmalar, alternativ mübahisələrin həlli mexanizmlərinin təkmilləşdirilməsi və digər aktual mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

## BƏƏ Prezidenti Fərid Əhmədovu qəbul edib



**Noyabrın 25-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovu qəbul edib.**

Fərid Əhmədov ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmimi salamlarını BƏƏ dövlət başçısına çatdırıb. Şeyx Məhəmməd bin Zayed Al Nəhyan da öz növbəsində salamlarını və dərin ehtiramını Azərbaycan dövlət başçısına çatdırmağı xahiş edib.

Əbu-Dabidə baş tutan qəbul zamanı Azərbaycan və BƏƏ prezidentlərinin təşəbbüsləri sayəsində iki ölkə arasında münasibətlərin bütün istiqamətlər üzrə strateji tərəfdaşlıq səviyyəsində olduğu diqqətə çatdırılıb.

Ölkə başçılarının əldə etdiyi razılıqlar əsasında iki ölkənin ədliyyə nazirlikləri arasında imzalanmış mülki və ticarət işləri üzrə, eləcə də cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya haqqında müqavilələr çərçivəsində əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Ədliyyə sahəsində sıx əməkdaşlığın ölkələr arasında əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verdiyi qeyd edilib.

Söhbət zamanı iki ölkə arasında hüquqi, eləcə də ədliyyə sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imkanların olduğu diqqətə çatdırılıb.

## Azərbaycan və Oman arasında ədliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

**Ədliyyə naziri Fərid Əhmədov Səudiyyə Ərəbistanına işgüzar səfəri çərçivəsində Oman Sultanlığından olan həmkarı Dr. Abdullah bin Mohammed Alsaidi ilə görüşüb.**



Tədbirdə ədliyyə sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, hüquqi yardım, ekstradisiya və məhkum edilmiş şəxslərin verilməsi sahəsində müqavilə-hüquqi bazanın yaradılması müzakirə olunub, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin və təcrübə mübadiləsinin genişləndirilməsinin hüquqi əməkdaşlığı daha da gücləndirəcəyi bildirilib.

Görüş çərçivəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Oman Sultanlığının Ədliyyə və Hüquq İşləri Nazirliyi arasında "Ədliyyə və hüquq sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Bir çox sahə üzrə təcrübə mübadiləsini nəzərdə tutan sənədin qarşılıqlı faydalı olacağı və iki ölkə arasında əməkdaşlığın inkişafına töhfə verəcəyi vurğulanıb.

## Azərbaycan ilə BƏƏ arasında ədliyyə sahəsində əməkdaşlıq genişlənir



**Noyabrın 26-da ədliyyə naziri Fərid Əhmədov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ədliyyə naziri Abdullah bin Sultan bin Avad əl-Nuaimi ilə görüşüb.**

Görüş çərçivəsində iki ölkə arasında ədliyyə sahəsində münasibətlərin inkişafı üçün mövcud olan hüquqi bazanın əhəmiyyəti diqqətə çatdırılıb. Ədliyyə nazirlikləri arasında Anlaşma Memorandumunun icrasını dəstəkləyəcək yeni Əməkdaşlıq Proqramının imzalanması müzakirə edilib, bu sənədin hüquqi əməkdaşlığın genişləndirilməsinə əlavə töhfə verəcəyi bildirilib.

Azərbaycan tərəfi ədliyyə sistemində rəqəmsallaşma və süni intellektin tətbiqinin genişləndirilməsi, xidmətlərin operativliyi və səmərəliliyinin artırılması istiqamətində görülən işlərdən bəhs edib və bu sahədə ən yaxşı beynəlxalq təcrübənin öyrənilməsində maraqlı olduğunu ifadə edib. Ölkələr arasında hüquqi əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədilə qarşılıqlı səfərlərin, eləcə də təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Fərid Əhmədov, həmçinin BƏƏ-nin Baş nazirinin müavini və daxili işlər naziri Şeyx Seyf bin Zayed Əl Nəhyan ilə də görüş keçirib. Görüş çərçivəsində tərəflər arasında cinayətkarlıqla mübarizə sahəsində qarşılıqlı ekstradisiyanın həyata keçirilməsi istiqamətində faydalı əməkdaşlığın olduğu vurğulanıb. Həmçinin tərəflər gələcək əməkdaşlıq perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovun xarici həmkarları ilə görüşləri

### Pakistanın hüquq və ədliyyə naziri ilə görüş



**Ədliyyə naziri Fərid Əhmədov Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyada səfəri çərçivəsində Pakistan İslam Respublikasının hüquq və ədliyyə naziri Azam Nazir Tarar ilə görüşüb.**

Görüşdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında ötən il imzalanmış Əməkdaşlıq Memorandumunun icrası, bu istiqamətdə konkret tədbirlərin həyata keçirilməsi barədə danışılıb, hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, ikitərəfli səfərlərin təşkili, təcrübə mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Tərəflər iki ölkə arasında dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycanda keçirilən Zəfər paradında iştirakının bu əlaqələrin inkişafına töhfə verdiyini vurğulayıblar.

### Qazaxıstanın ədliyyə naziri ilə görüş



**Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Qazaxıstan Respublikasının ədliyyə naziri Yerlan Sarsembayevlə görüşüb.**

Görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olması və qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Ölkələr arasında imzalanmış sənədlərin əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfədən bəhs edilib, hüquqi sahədə yardımın göstərilməsinin və beynəlxalq müqavilələr əsasında praktiki təcrübə mübadiləsinin əhəmiyyətinə diqqət çəkilib. Tərəflər, həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində ədliyyə sahəsində əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər.

Görüşdə məhkəmə qərarlarının icrası və xüsusi icra institutunun tətbiqi, notariat fəaliyyəti, ədliyyə sahəsində rəqəmsallaşma və süni intellektin tətbiqi, vətəndaş yönümlü rəqəmsal həllərdən istifadə, məhkəmə ekspertizası sahələrində qarşılıqlı təcrübə mübadiləsinin davam etdirilməsi məsələləri müzakirə olunub.

Bununla yanaşı, əməkdaşlığın institusional əsaslarını möhkəmləndirmək məqsədilə Qazaxıstandan olan hakimlərin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında tədrisi imkanları planlaşdırılıb.

### Gürcüstanın ədliyyə naziri ilə görüş



**Ədliyyə naziri Fərid Əhmədov gürcüstanlı həmkarı Paata Salia ilə görüş keçirib.**

Nazir qonağı Azərbaycanda salamlamaqdan məmnunluğunu ifadə edib və vurğulayıb ki, ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan əlaqələr təkcə ikitərəfli səviyyədə deyil, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

Fərid Əhmədov qeyd edib ki, cari ildə Gürcüstanın prezidenti Mixail Kavelaşvilinin, eləcə də Baş naziri İrakli Kobaxidzenin vəzifəyə başladıqdan sonra ilk rəsmi səfərlərini məhz Azərbaycana etmələri iki ölkə arasında münasibətlərin səmimi xarakterini və qarşılıqlı hörmətə əsaslandığını bir daha nümayiş etdirir.

Görüşdə icra, xüsusi icra və probasiya sahələrinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi, bu istiqamətdə Gürcüstanla səmərəli təcrübə mübadiləsinin aparılması, həmçinin 2022-ci ildə Batumidə keçirilən Hüquq Forumu və imzalanmış Əməkdaşlıq Memorandumunun əlaqələrin inkişafına verdiyi töhfə müzakirə olunub. Tərəflər gələcəkdə də birgə tədbirlərin keçirilməsi və əməkdaşlığın yeni istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

Görüşdə ədliyyə sahəsində rəqəmsallaşmanın hər iki ölkə üçün prioritet olduğu qeyd edilib. Bildirilib ki, ölkəmizdə icra proseslərinin rəqəmsallaşdırılması istiqamətində atılan innovativ addımlar - "Elektron hərrac" platforması, "Mobil icra" tətbiqi, eləcə də sənədlərə və qanunvericilik bazasına çıxışı təmin edən "E-qanun.ai" süni intellekt dəstəkli hüquqi axtarış platforması uğurla fəaliyyət göstərir.

Sonda vurğulanıb ki, bu səfər və keçirilən görüşlər təcrübə və fikir mübadiləsinə, eləcə də Azərbaycan və Gürcüstan arasında hüquqi əməkdaşlığın daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək.

## TDT-yə üzv dövlətlərin ədliyyə nazirlərinin 2-ci iclası Bakıda keçirilib



**Noyabrın 20-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ədliyyə nazirləri Bakıda keçirilən toplantı çərçivəsində bir araya gəliblər.**

Əvvəlcə qonaqlar Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, Şəhidlər xiyabanında və Zəfər parkında olub, şəhidlərimizin xatirəsini anıblar.

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovun sədrliyi ilə baş tutan iclasda Türkiyə Respublikasının ədliyyə naziri Yılmaz Tunç, Özbəkistan Respublikasının ədliyyə naziri Əkbər Taşkulov, Qazaxıstan Respublikasının ədliyyə naziri Yerlan Sarsembayev, Qırğız Respublikasının ədliyyə nazirinin müavini İsgəndər Sıdıqalıyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

Görüş çərçivəsində 9 sentyabr 2024-cü ildə imzalanmış Astana Bəyannaməsində nəzərdə tutulan istiqamətlər üzrə görülmüş işlərin icra vəziyyəti müzakirə olunub, üzv dövlətlər arasında hüquq və ədliyyə sahəsində əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.




Tədbirdə Astana Bəyannaməsinin müddəalarına uyğun olaraq, üzv dövlətlər tərəfindən hüquq və ədliyyə sahəsində rəqəmsal transformasiya və innovativ həllərin tətbiqi üzrə həyata keçirilən işlər və qabaqcıl təcrübələr təqdim olunub, hərtərəfli və funksional elektron ədliyyə sisteminin xidmət keyfiyyətini artırması, prosesləri sadələşdirməsi və istifadəçi yönümlü mühitin formalaşmasına töhfə verməsi qeyd edilib və qarşılıqlı maraq doğuran məsələlər nəzərdən keçirilib.

Görüş zamanı TDT-yə üzv dövlətlərin ədliyyə nazirlikləri arasında mülki işlər üzrə hüquqi yardım haqqında Azərbaycanın təşəbbüsü ilə çoxtərəfli Saziş layihəsinin hazırlanması istiqamətində Ekspert Qrupunun fəaliyyəti, eləcə də Məhkəmə Ekspertizasının Mərkəzləşmiş Şəbəkəsinin yaradılması üzrə yaradılmış İşçi Qrupunun gördüyü işlər diqqətə çatdırılıb. İştirakçılar TDT-yə üzv dövlətlərin ədliyyə nazirliklərinin 3-cü iclasının 2026-cı ildə Türkiyə Respublikasında keçirilməsi barədə razılığa gəliblər.

Qonaqlar görüşün yüksək səviyyədə təşkilinə görə ədliyyə naziri Fərid Əhmədova dərin minnətdarlıqlarını bildiriblər və Azərbaycan tərəfinin səmimi qonaqpərvərliyini yüksək qiymətləndiriblər.

Qeyd edək ki, TDT-yə üzv dövlətlərin ədliyyə nazirlərinin ilk iclası ötən il Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilib.

# Ədliyyə Nazirliyi və KOBİA biznes assosiasiyalarla görüş keçirib

**Noyabrın 3-də Ədliyyə Nazirliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə müxtəlif sektorlarda fəaliyyət göstərən sahibkarların icitimai birliklərinin üzvləri ilə görüş keçirilib.**

"Ədliyyə sahəsində həyata keçirilən institusional və qanunvericilik yeniliklərinin sahibkarlığın inkişafına təsiri, eləcə də hüququn aliliyinin qorunması və ölkənin davamlı inkişafındakı rolu" mövzusuna həsr olunmuş tədbirdə 20-yə yaxın biznes assosiasiyanın təmsilçiləri və sahibkarlar iştirak ediblər.

Görüşün məqsədi dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, biznes subyektlərinin fəaliyyətinə dəstəyin artırılması və ölkəmizdə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına töhfə vermək olub.

Tədbirdə çıxış edən ədliyyə naziri Fərid Əhmədov ədliyyə sahəsində fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi və səmərəliliyin artırılması istiqamətində son illər ərzində Nazirliyin fəaliyyət istiqamətləri üzrə qanunvericilik və institusional tədbirlərin həyata keçirilməsi barədə danışıb. Nazir dövlət-özəl tərəfdaşlığının müxtəlif sahələrin inkişafında mühüm rol oynadığını, xüsusən də özəl





sektor tərəfindən irəli sürülən təklif və təşəbbüslərin nazirliyin fəaliyyət istiqamətləri üzrə aparılan islahatlara mühüm töhfə verəcəyini qeyd edib. Vurğulanıb ki, həyata keçirilən hüquqi və institusional tədbirlərdə sahibkarların da yaxından iştirakı qarşıya qoyulan hədəflərə nail olmaq baxımından mühüm əhəmiyyət daşıyır.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, sahibkarlıq fəaliyyəti dinamik inkişaf etdiyi üçün yeni çağırışlar və tələblər qanunvericilikdə adekvat şəkildə əks olunmalıdır. Bildirilib ki, KOBİA bu sahədə aparılan institusional islahatları yaxından izləyir və KOB-ların hüquqi mühitlə bağlı ehtiyac və çağırışlarını müvafiq dövlət qurumlarına çatdırır. Eyni zamanda bu istiqamətdə sahibkarların hüquqi maarifləndirilməsi məqsədilə tematik görüşlər və təlimlər təşkil olunur, ədliyyə orqanları ilə birgə institusional dialoqun gücləndirilməsi sahəsində əməkdaşlıq edilir, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər aidiyyəti üzrə təqdim olunur. Biznes mühitinin inkişafında, sahibkarlıqla bağlı qanunvericiliyin təkmilləşdirilməsi prosesində sahə üzrə maraqlı tərəflərin, o cümlədən sahibkarların və biznes assosiasiyaların iştirakı əhəmiyyətlidir. Sahibkarların təklifləri praktiki ehtiyaclara söykəndiyi üçün onların fikir və təkliflərinin nəzərə alınması iqtisadi fəaliyyətin tənzimlənməsində çevik və effektiv yanaşmaların tətbiqinə imkan yaradır.

Görüş çərçivəsində sahibkarların fikir və təklifləri dinlənilib, əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparılıb. Sahibkarların səsləndirdiyi fikir və təkliflərin Ədliyyə Nazirliyi və KOBİA tərəfindən birgə işçi qaydada icrasının təmin olunması, bununla bağlı qurumlararası məsul şəxslərin müəyyən edilməsi qərara alınıb.

# Ədliyyə nazirinin müavini Tacikistanda Hüququn Aliliyi üzrə Milli Forumda iştirak edib

**Noyabrın 4-də Ədliyyə nazirinin müavini Mübariz Əhmədov və Nazirliyin Beynəlxalq əməkdaşlıq baş idarəsində idarə rəisi Azər Cəfərov Hüququn Aliliyi üzrə Milli Forumda iştirak etmək üçün Tacikistana səfər ediblər.**






Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı Səfirliyinə baş çəkib, Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil qoyaraq xatirəsini anıb.

Daha sonra nümayəndə heyəti Hüququn Aliliyi üzrə Milli Forumda iştirak edib.

İnsan hüquqlarının müdafiəsi, mülki və sahibkarlıq sahəsində qanunvericilik, həmçinin cinayət hüququ siyasəti kimi mövzuları əhatə edən tədbirə Tacikistan, Rusiya, Qırğızıstan və Türkmənistan ədliyyə nazirliklərinin rəhbər şəxsləri, BMT-nin və digər beynəlxalq təşkilatların nümayəndələri qatılıblar.

Forumun açılış mərasimində çıxış edən nazir müavini Mübariz Əhmədov Azərbaycan və Tacikistan arasında 2024-cü ildə imzalanmış "Strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin iki ölkə arasında qarşılıqlı əməkdaşlığın bütün istiqamətlərini əhatə etdiyini vurğulayıb. Nazir müavini ötən il imzalanmış "Məhkəmə aktlarının və digər orqanların aktlarının icrası sahəsində əməkdaşlıq haqqında Memorandum"un icra qurumları arasında əməkdaşlığa yeni imkanlar açacağını bildirib. Nazir müavini iki ölkənin ədliyyə nazirlikləri arasında imzalanmış "Əməkdaşlıq haqqında Saziş" çərçivəsində bir sıra konkret nəticələrə yönələn tədbirlərin, o cümlədən təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərin təşkil edildiyini qeyd edib. O, həmçinin ölkəmizdə ədliyyə sahəsində şəffaflığın, səmərəliliyin və əlçatanlığın artırılması, rəqəmsal transformasiyanın gücləndirilməsi məqsədilə görülmüş işlər barədə məlumat verib. Forumun beynəlxalq təcrübə mübadiləsinə, hüquqi dəyərlərin təşviqinə və dövlətlərarası əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Forum çərçivəsində Mübariz Əhmədov Tacikistan Respublikasının, eləcə də tədbirdə iştirak edən digər ölkələrin ədliyyə nazirliklərinin rəhbər şəxsləri ilə görüşlər keçirib, əməkdaşlıq perspektivlərini müzakirə edib.

Forum öz işini tematik sessiyalarla davam etdirib.

# Azərbaycanlı hakimlər Almaniyada təlimdə iştirak ediblər

**Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının təşəbbüsü və dəstəyi ilə hüquqi alman dili biliklərinin təkmilləşdirilməsi, müvafiq praktiki biliklər və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə bu ilin 16-21 noyabr tarixlərində bir sıra apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri üçün Almaniyanın Halle şəhərinə təlim səfəri təşkil olunub.**





Təlim hakimlər üçün hazırlanmış xüsusi proqram əsasında ixtisaslaşmış müəllim, ekspert Maykl Vildinq tərəfindən aparılıb. Bununla yanaşı, hakimlər Martin Lüter adına Halle-Vittenberq Universitetində də olublar. Həmin Universitetin professoru Azər Əliyev tərəfindən onlara Universitetin tarixi, burada tədrisin təşkili və tədris prosesi ilə bağlı ətraflı məlumat verilib.

Səfər çərçivəsində hakimlər Naumburq Ali Torpaq Məhkəməsini (Naumburg Oberlandsgericht) və Leypsiq Federal İnzibati Məhkəməsini də (Leipzig Bundesverwaltungsgerich) ziyarət edib, məhkəmə iclaslarında iştirak ediblər.

## Ədliyyə orqanlarına işə qəbul olunmuş əməkdaşların andiçmə mərasimi keçirilib

**Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş növbəti müsabiqənin bütün mərhələlərini uğurla tamamlamış və 6 aylıq stajorluq müddəti müəyyən edilməklə işə qəbul olunmuş ədliyyə işçilərinin andiçmə mərasimi keçirilib.**

Yeni ədliyyə qulluqçuları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi anılıb.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ədliyyə nazirinin müavini Abiddin Hüseynov çıxış edərək bildirib ki, ədliyyə sistemi hüquqi dövlətin vacib institutlarından biri kimi dövlətin və cəmiyyətin müxtəlif sahələri ilə əlaqəli şəkildə fəaliyyət göstərir. O qeyd edib ki, yeni əməkdaşlar dövlətə və qanunlara sədaqət andı içərək bu şərəfli xidmətə başlayırlar. Nazir müavini yeni ədliyyə qulluqçularının insan hüquq və azadlıqlarına hörmət edərək, qanunçuluq və humanizm prinsiplərini rəhbər tutaraq, dövlətçiliyə daim sadiq qalaraq vəzifələrini ləyaqətlə yerinə yetirəcəyinə, ədliyyə orqanlarının nüfuzunun artırılmasına töhfə verəcəyinə inamını ifadə edib.

Daha sonra ədliyyə qulluqçularının Ədliyyə Nazirliyinin müxtəlif struktur qurumlarında işə qəbul olunması barədə imzalanmış müvafiq əmr səsləndirilib.

Yeni təyinat almış əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağının önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələri təqdim edilib.

Qeyd edək ki, Nazirliyin Müsabiqə Komissiyası tərəfindən keçirilən sonuncu müsabiqə üzrə 354 hüquqşünas sənəd təqdim edib, onlardan 183 nəfər test imtahanına buraxılıb. Test imtahanı, söhbət və icbari təlim mərhələlərini uğurla tamamlamış, 32-si qadın, 25-i kişi olmaqla 57 namizəd ədliyyə orqanlarında işə qəbul edilib.






## Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən namizədlərlə test imtahanı keçirilib



**Ədliyyə Nazirliyi tərəfindən əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin artırılması və notarius korpusunun peşəkar hüquqşünaslarla komplektləşdirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir.**

Bu məqsədlə Ədliyyə Nazirliyinin İxtisas Komissiyası tərəfindən notariat fəaliyyəti ilə peşəkar şəkildə məşğul olmaq üçün şəhadətnamə almaq istəyən və "Notariat haqqında" Qanunun tələblərinə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları üçün növbəti açıq müsabiqə elan olunub.

Noyabrın 14-də Dövlət İmtahan Mərkəzi ilə birgə kompüter vasitəsilə keçirilən müsabiqənin birinci mərhələsi - test imtahanında 280 namizəd iştirak edib. Test imtahanının nəticələri namizədlərə imtahanı yekunlaşdırdıqda dərhal təqdim olunub. Qanunvericiliyin tələbinə uyğun olaraq test imtahanından mümkün 90 balın 60-nı toplayan 119 namizəd uğur qazanaraq növbəti mərhələyə buraxılıb.

İmtahan prosesini Ədliyyə nazirinin müavini, Nazirliyin İxtisas Komissiyasının sədri Abiddin Hüseynov, Komissiyanın digər üzvləri, Nazirlik yanında İctimai şuranın üzvləri, eləcə də vətəndaş cəmiyyəti nümayəndələri izləyiblər.

Müsahibə mərhələsində uğur qazanan hüquqşünaslar Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunacaqlar və təlimin yekununda aparılan qiymətləndirmənin nəticəsinə əsasən onlara notariat fəaliyyəti ilə peşəkar şəkildə məşğul olmaq üçün şəhadətnamə veriləcək.



## Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının Ümumi Yığıncaqları keçirilib

**Noyabr ayı ərzində Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının Ümumi Yığıncaqları keçirilib.**

Tədbirlərdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin, Ədliyyə Nazirliyinin nümayəndələri, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının rəhbərləri və 300-dən çox bələdiyyə üzvü iştirak edib.





Yığıncaqlar zamanı Assosiasiyaların 2023-2024-cü illərdə fəaliyyəti haqqında hesabatlar, Nəzarət-təftiş komissiyalarının hesabatları, təşkilati məsələlər, Ədliyyə Nazirliyi və digər qurumlarla birgə həyata keçirilən tədbirlər, bələdiyyələrin iqtisadi potensialının artırılması üzrə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Həmçinin yerli özünüidarəetmə sisteminin inkişaf etdirilməsi üçün müəyyən edilmiş hədəflər və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat təqdim edilib. Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müvafiq şöbəsinin dəstəyi, Milli Məclisin Regional Məsələlər Komitəsi, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi və digər əlaqədar qurumlarla əməkdaşlıq çərçivəsində bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş sistemli tədbirlər həyata keçirilib. Yerli özünüidarəetmə sahəsində qabaqcıl təcrübənin geniş tətbiqi, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi və uçot sistemində aparılan optimallaşdırma nəticəsində bələdiyyələrin büdcə daxilolmalarının əvvəlki illərlə müqayisədə artdığı vurğulanıb.

Yığıncaqlarda, həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət zamanı aşkarlanan nöqsanlar, həmin pozuntuların aradan qaldırılması istiqamətində Ədliyyə Nazirliyi tərəfindən görülən işlər və göstərilən metodoloji yardımın əhəmiyyəti qeyd olunub.

# Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilib

**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

Noyabrın 20-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Şəki, Lənkəran, Şəmkir, Şirvan, Gəncə və Göyçay regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.





Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi, Tibb baş idarəsi və İnsan resursları idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 12 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.




**Noyabr ayında Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Lənkəran və Göyçay regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.**

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda penitensiar sahə ilə bağlı 10 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.




**Noyabr ayı ərzində Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə Bələdiyyələrlə iş baş idarəsi, Notariat, qeydiyyat və reyestr baş idarəsi, Məhkəmə Ekspertizası Mərkəzi, Tibb baş idarəsi, İcra xidməti və İnsan resursları idarəsinin rəhbərliyi tərəfindən Şəki, Şirvan, İmişli, Xaçmaz, Göyçay, Lənkəran, Bərdə, Şəmkir və Gəncə regional ədliyyə idarələri ilə birlikdə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.**

Videoqəbullarda Nazirliyin fəaliyyət istiqamətləri üzrə 49 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

# Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzində noyabr ayında xidmət səviyyəsi 90 faiz təşkil edib

**Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.**

Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.

Noyabr ayı ərzində "881" Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, notariat, qeydiyyat, penitensiar sahə, bələdiyyələrin fəaliyyəti, məhkəmə ekspertizası, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 13.381 müraciətdən 13.120-si cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi) 90 faiz təşkil edib, habelə vətəndaşların müraciətlərinə orta hesabla 2 dəqiqə 5 saniyə ərzində cavab verilib.

Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, "geriyə zəng" və "zəng sifarişi" xidmətləri ilə ay ərzində 261 itirilmiş zənglə əks əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən 447 vətəndaşın suallarının cavablandırılması təmin edilib.

Xidmət keyfiyyətinin dəyərləndirilməsi məqsədilə zəng bitdikdən sonra Çağrı Mərkəzi tərəfindən vətəndaşlara SMS göndərilir. Vətəndaşlar həmin SMS-dəki linkə daxil olub qısa sualları cavablandıraraq və əlavə şərh yazaraq göstərilən xidməti qiymətləndirə bilərlər.







Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

# Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında andiçmə mərasimi keçirilib





**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Azərbaycan Respublikasının Dövlət Bayrağı hərbi marş sədaları altında meydanın mərkəzinə gətirilib, şəhidlərin abidəsi önünə gül dəstələri qoyulub, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gənc əsgərlər təntənəli şəkildə Hərbi Anda gətirildikdən sonra ədliyyə naziri Fərid Əhmədovun təbrik və tövsiyələri gənc əsgərlərə çatdırılıb.

Böyük Zəfərin 5-ci ildönümünə təsadüf edən andiçmə mərasimində Vətənə, xalqa və dövlətə sədaqət andı içən gənc əsgərlər Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmrinə hər zaman hazır olduqlarını, nizam-intizamı qoruyacaqlarını bildiriblər.

Sonda şəxsi heyətin marş sədaları altında təntənəli keçidi izlənilib.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### Azərbaycan Cüdo Federasiyası ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.12.1992-ci il
**Qeydiyyat N-si:** 272
Konfransın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Nəbiyev Rəşad Nəbi oğlu olmuşdur
**Dəyişiklik:** 03.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Femida Könüllüləri Təşkilatı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4218
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Vahabov Salman Adil oğlu olmuşdur
**Dəyişiklik:** 03.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Kainat" Milli-Mənəvi Dəyərlərin Təbliğinə Dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q81-4142
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Səfiyeva Fəridə Ramiz qızı olmuşdur
**Dəyişiklik:** 03.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "İqtisadiyyat və Hüquq" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.05.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1772
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Eyvazov Aqil Aftandil oğlu olmuşdur
**Dəyişiklik:** 04.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 10.08.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q19-2430
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni adı "Azərbaycan Kapital Bazarları Assosiasiyası" ictimai birliyi, yeni məqsədi: kapital bazarı iştirakçılarının (kapital bazarında lisenziyalaşdırılan şəxslər, emitentlər, investorlar və bu sahə ilə əlaqəli olan digər şəxslər) səmərəli peşəkar fəaliyyəti üçün şəraitin yaradılması, qanuni təmsilçisi Bağırov Orxan İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 04.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "İşıqlı Gələcək"gənclər ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.10.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q47-3227
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xanlayev Samrin Nadir oğlu olmuşdur
**Dəyişiklik:** 05.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Bakı İncəsənət Mərkəzi" Eksperimental Yaradıcılıq ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.09.1993-cü il
**Qeydiyyat N-si:** 433
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Gülməmmədli Rafail Rasim oğlu olmuşdur
**Dəyişiklik:** 05.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Xaçmaz Kəndlərinin Davamlı İnkişafı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 01.02.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q44-3140
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qafarov Nəzər Babacan oğlu olmuşdur
**Dəyişiklik:** 05.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.02.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q26-2676
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Paşayeva Kəmalə Ələsgər qızı olmuşdur
**Dəyişiklik:** 05.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q18-2390
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qasımov Rey Kərim oğlu olmuşdur
**Dəyişiklik:** 05.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Siyasi Hüquqların Müdafiə Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.05.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q80-4056
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni adı: "Sosial Hüquqların Müdafiə Mərkəzi" ictimai birliyi, yeni məqsədi: sosial hüquqların müdafiəsinə dəstək vermək olmuşdur
**Dəyişiklik:** 05.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Şəfqət Nuru" kimsəsizlərə yardım xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2000-ci il
**Qeydiyyat N-si:** 1309
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xudiyeva Aynurə Əjdər qızı olmuşdur
**Dəyişiklik:** 06.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Geosiyasi və Hüquqi Təhlil Mərkəzi: Transatlantik Perspektiv" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4230
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hacıyev Sidqi Şövkətoviç olmuşdur
**Dəyişiklik:** 06.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Ahıl Ziyalılara Qayğı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.11.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q3-1634
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Nurullayev Nicat Namik oğlu olmuşdur
**Dəyişiklik:** 06.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Nəsimi-4" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 22.08.2016-ci il
**Qeydiyyat N-si:** 1116-MM3-0030
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəsulov Sakit Rauf oğlu olmuşdur
**Dəyişiklik:** 06.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Təhsilə Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 20.04.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q17-2364
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sadiyev Aqil Ağarza oğlu olmuşdur
**Dəyişiklik:** 07.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Gənclərin İnkişaf və Tərəqqisinə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.03.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q30-2821
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəcəbli Xalid İlham oğlu olmuşdur
**Dəyişiklik:** 07.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Mebel İstehsalçıları Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.01.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q62-3554
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İslamlı Fərman Fərrux oğlu olmuşdur
**Dəyişiklik:** 07.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Feniks" sağlam həyat təbliği ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.12.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q20-2478
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Azər Nəriman oğlu olmuşdur
**Dəyişiklik:** 12.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azərbaycan Fəhlə Zəhmətkeşlər İttifaqı" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2647
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məhərrəmov Tofiq Xanlar oğlu olmuşdur
**Dəyişiklik:** 13.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Qlobal Sahibkarlıq Şəbəkəsi Azərbaycan" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.11.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q81-4118
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynova Fidan Böyükağa qızı olmuşdur
**Dəyişiklik:** 13.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Biləsuvarda Qadınların Sosial İnkişafına Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 08.11.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q61-3540
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə qanuni təmsilçisi Əzizova Natəvan Sahibəli qızı olmuşdur
**Dəyişiklik:** 14.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**Azərbaycan Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı**

**Qeydiyyat tarixi:** 14.02.1992-ci il
**Qeydiyyat N-si:** 136
Qurultayın qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Binəqədi şossesi, 77, qanuni təmsilçisi Kərimov Hüseyn Qubad oğlu olmuşdur
**Dəyişiklik:** 14.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Hüquqi və Demokratik İslahatlar Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 05.05.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q2-1556
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyev İlham Yaylaqalı oğlu olmuşdur
**Dəyişiklik:** 14.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"İpək Yolu" Mədəni və Tarixi Araşdırmalar ictimai birliyi**

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4229
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Eyvazova Aida Məmmədşah qızı olmuşdur
**Dəyişiklik:** 18.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Neftçilər Klubu" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.08.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q41-3088
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən sədr vəzifəsinin icrası Mustafayev Comərd Yavər oğluna həvalə edilmişdir
**Dəyişiklik:** 18.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Qazilərin Sosial Durumları və Hüquqlarının Müdafiəsi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 13.04.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q82-4173
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xudiyev Xudadad Bərxudar oğlu olmuşdur
**Dəyişiklik:** 18.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azərbaycan Uşaqlarının İnkişaf Platforması" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4226
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Müslüm Çingiz oğlu olmuşdur
**Dəyişiklik:** 18.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Kapellhaus" Alman-Azərbaycan Mədəniyyət ictimai birliyi**

**Qeydiyyat tarixi:** 17.04.1998-ci il
**Qeydiyyat N-si:** 1042
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Alıyev Azər Teymur oğlu olmuşdur
**Dəyişiklik:** 20.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Yeni Xətt" Siyasi Tədqiqatlar ictimai birliyi**

**Qeydiyyat tarixi:** 13.04.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q82-4171
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Ramil Qələmirzə oğlu olmuşdur
**Dəyişiklik:** 20.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Səməndər" Sosial Araşdırmalar və İnformasiya Mərkəzi ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.05.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q82-4198
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Balazadə Pərvanə Arif qızı olmuşdur
**Dəyişiklik:** 20.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Ailələrə Sosial Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2629
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhimova Esmira Hüseyn qızı olmuşdur
**Dəyişiklik:** 21.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Xəzər rayonunda qadınların sosial inkişafına dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 14.02.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q72-3802
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəfərova Lalə Paşa qızı olmuşdur
**Dəyişiklik:** 21.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Dalğa" Ekologiya və Təbiətin Qorunması ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.09.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1882
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Sədaqət Zili qızı olmuşdur
**Dəyişiklik:** 21.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Ekoloq-2010" ekoloji maarifləndirmə ictimai birliyi**

**Qeydiyyat tarixi:** 16.02.2011-ci il
**Qeydiyyat N-si:** 1111-Q35-2934
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Balayev Səlim Loğman oğlu olmuşdur
**Dəyişiklik:** 21.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Ailələrə Sosial Dayaq" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.11.2011-ci il
**Qeydiyyat N-si:** 1111-Q38-3007
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Yusifov Qnyaz Bağır oğlu olmuşdur
**Dəyişiklik:** 24.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Hüquqi Maarifləndirmə Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.12.2019-cu il
**Qeydiyyat N-si:** 1119-Q71-3798
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənli Nərmin Müşfiq qızı olmuşdur
**Dəyişiklik:** 24.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Qəbələ rayonunda təbiətin mühafizəsinə kömək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.12.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q29-2798
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Babayeva Şəlalə Vaqif qızı olmuşdur
**Dəyişiklik:** 24.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Müasir İnformasiya Cəmiyyəti və İnnovasiyalar" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.10.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q56-3416
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Seymur İmran oğlu olmuşdur
**Dəyişiklik:** 24.11.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**ELAN**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 20.11.2020-ci il tarixli Qərarı ilə 1120-Q74-3866 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu Könüllüləri" İctimai Birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində qurума olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
Bakı şəhəri, Mətbuat prospekti, 24

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 08.05.2002 tarixdə 74 nömrə ilə dövlət qeydiyyatına alınmış Beynəlxalq Təhsil üzrə Amerika Şurası Korporasiyasının (ACTRA/ACCELS) Azərbaycandakı filialı ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: AZ1002, Bakı şəhəri, Səbail rayonu, Mirzə Mənsur küçəsi 61, mənzil 4

**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769